AZERBAIJAN
# Olimpiya dünyası
www.olimpiyadunyası.az
*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*
*№ 20 (1480), 15 - 21 iyun 2021-ci il*
*Qəzet 2001-ci ildən çıxır.*

# Bakı Olimpiya Stadionunda Avropa çempionatının final mərhələsinin Uels-İsveçrə matçı keçirilib



## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oyuna baxıblar*

İyunun 12-də tarixdə ilk dəfə Azərbaycanda futbol üzrə Avropa çempionatının final mərhələsinin ilk oyunu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva A qrupunun Bakı Olimpiya Stadionunda keçirilən Uels-İsveçrə matçına baxıblar.

Avropa çempionatının oyunlarının Bakıda keçirilməsi Azərbaycan idmanının beynəlxalq səviyyədə qazandığı növbəti uğurun bariz nümunəsidir. Ölkəmiz indiyədək idmanın müxtəlif növlərinə aid mötəbər beynəlxalq yarışlara yüksək səviyyədə ev sahibliyi edib. Bu gün ən nüfuzlu idman qurumlarının böyük beynəlxalq yarışlara ev sahibliyi hüququnu tərəddüd etmədən Azərbaycana verməsi də təsadüfi deyil.

Uels-İsveçrə matçı gərgin mübarizə şəraitində keçdi. Matçın ilk hissəsi qolsuz başa çatdı. İsveçrə millisinin hücumçusu Breel Embolo matçın 49-cu dəqiqəsində hesabı açdı.

Bundan sonra hücumlarının sayını artıran Uels komandası 74-cü dəqiqədə Kieffer Murun qolu ilə hesabı bərabərləşdirdi.

Matçın 85-ci dəqiqəsində İsveçrə yığmasının hücumçusu Mario Qavranoviçin Uels millisinin qapısına vurduğu qol isə videonəzarət sistemində baxıldıqdan sonra qeydə alınmadı. Oyun 1:1 hesablı heç-heçə ilə başa çatdı.

Qeyd edək ki, Avropa çempionatının 60 illik yubileyi münasibətilə AVRO-2020-nin oyunları müxtəlif ölkələrdə təşkil olunacaq. Bakı Olimpiya Stadionu A qrupu çərçivəsində iyunun 16-da Türkiyə-Uels və iyunun 20-də isə Türkiyə-İsveçrə oyunlarına da ev sahibliyi edəcək. İyulun 3-də isə Bakıda dörddəbir final mərhələsinin bir qarşılaşması olacaq.

## *Azərbaycan Tokio-2020-nin karate yarışlarında 3 idmançı ilə təmsil olunacaq*

Karate üzrə milli komandamız Tokio-2020 Yay Olimpiya Oyunlarında 3 idmançı ilə təmsil olunacaq. Rafael Ağayev (-75 kq) və İrina Zaretskanın (+61 kq) ardından, Parisdə Olimpiya lisenziyalı son turnirdə Firdovsi Fərzəliyev (-67 kq) bürünc medalla yanaşı, Olimpiadaya lisenziyaya da sahib olub.

İdmançımız bürünc medal görüşündə Stefan Cokiçi (Serbiya) 3:2 hesabı ilə məğlub edərək Tokio Olimpiadasına lisenziyalar uğrunda dördlər finalında iştirak etmək imkanı da qazanıb. Mükafatçılar dairəvi sistemlə bir-birləri ilə yarışıblar. Nəticədə üçüncü yeri tutan F.Fərzəliyev Tokio Yay Olimpiya Oyunlarına vəsiqə alıb.

İyunun 11-13-də 98 ölkədən 500 karateçinin Olimpiya vəsiqələri uğrunda mübarizəsini idarə edənlər arasında beynəlxalq hakimlər Cahangir Babayev və Vüqar Kərimov da yer alıb. “Pyer de Kubertyen” arenasında yarışın hər kateqoriyasında ilk üçlük Olimpiya lisenziyaları qazanıb.

Qeyd edək ki, Tokio 2020-nin iştirakçılarından ilk 40 idmançının adları Dünya Karate Federasiyasının (WKF) rəsmi yarışlarında xüsusi Olimpiya reytinqinin ilk 4 pilləsi ilə təyin edilib. Daha 24 idmançı Fransanın paytaxtında xüsusi Olimpiya lisenziya turnirində vəsiqə qazanıb. 12 əlavə Olimpiya vəsiqəsi isə müvafiq olaraq qitə nümayəndəliklərinə veriləcək. Qalan 4 karateçiyə Olimpiya vəsiqələri Üçtərəfli komissiyanın dəvəti ilə veriləcək.



Tokio-2020 Olimpiadasında 80 karateçi yarışacaq, onlardan 60 nəfəri kumitedə, 20 idmançı isə kata çıxışlarında mübarizə aparacaq. Tokio Olimpiadasının karate yarışları avqustun 5-7-də Nippon Budokan mərkəzində keçiriləcək.

## Tokio Olimpiadasına yollanacaq idmançıların peyvəndləmə prosesinə başlanılıb

Azərbaycanı Tokio-2020 Yay Olimpiya Oyunlarında təmsil edəcək idmançıların və bütövlükdə Azərbaycanın Olimpiya oyunlarına qatılacaq heyət üzvlərinin COVİD-19 infeksiyasına qarşı peyvəndləmə prosesinə başlanıb. İlk peyvənd Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə vurulub. Peyvəndləmə prosesinə koronavirus xəstəliyinə yoluxmayan bütün idmançılar, Olimpiya heyəti üzvləri cəlb olunub. MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə bildirib ki, vaksin vurulmasına əks göstərişi olmayan, Azərbaycanın Tokio Olimpiya Oyunları komandasının bütün üzvləri peyvəndləməyə cəlb olunacaq. “Hazırda təlim-məşq toplantılarında olan Olimpiya komandası üzvləri də mərhələli şəkildə Olimpiya Oyunlarına qədər peyvənd olunacaqlar. İştirakçı ölkələrdə başlanan peyvəndlənmə prosesi Tokio-2020 Yay Olimpiya Oyunlarının sağlamlıq üçün təhlükəsiz şəraitdə keçməsinə zəmin yaradacaq”, - deyə vitse-prezident bildirib.

Qeyd edək ki, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax son çıxışında bildirib ki, atletlər kəndində məskunlaşacaq, Tokio Olimpiya və Paralimpiya Oyunlarında iştirak edəcək idmançıların və komanda üzvlərinin 80 faizi oyunlar başlayana qədər vaksinasiya olunacaq.

Tokioda 2020-ci ilin yayında keçirilməli olan Yay Olimpiya və Paralimpiya oyunları koronavirus pandemiyası ilə əlaqədar cari ilə keçirilib. Nəticədə, Tokioda Olimpiya oyunlarının 23 iyul - 8 avqust, Paralimpiya oyunlarının isə 24 avqust - 5 sentyabr tarixlərində keçirilməsi planlaşdırılıb.

## Azərbaycan nümayəndə heyəti AOK-un prezidenti vəzifəsinə seçkilərdə iştirak edib

Avropa Olimpiya Komitəsinin (AOK) iyunun 10-da Afinada keçirilən 50-ci Baş Assambleyasında Yunanıstanın Milli Olimpiya Komitəsinin prezidenti Spiros Kapralos AOK-un prezidenti seçilib. O, AOK tarixində 9-cu prezident kimi səlahiyyətlərinin icrasına başlayıb.

Azərbaycanı toplantıda Milli Olimpiya Komitəsinin nümayəndələri - MOK baş katibinin müavini Azər Əliyev, marketinq şöbəsinin müdiri Mehman Kərimov, beynəlxalq şöbənin rəhbəri Anar Bağırov, eləcə də Avropa Gimnastika Federasiyasının prezidenti Fərid Qayıbov və Azərbaycanın Yunanıstandakı səfiri Anar Hüseynov təmsil ediblər.

AOK-un Baş Assambleyasının toplantısında qurumun digər orqanlarına da seçkilər keçirilib. AOK-un baş katibi vəzifəsinə Rafael Paqnozzi (İtaliya), vitse-prezident vəzifəsinə isə Daina Qudzineviciute (Litva) seçilib. 2021-2025-ci illər üçün AOK İcraiyyə Komitəsinə isə Jan Mişel Brun (Fransa), Annamari Felps (Böyük Britaniya), Berit Kyoll (Norveç), Hasan Arat (Türkiyə), Corce Visatski (Serbiya), Viktoriya Kabezas (İspaniya), Xose Manuel Arauxo (Portuqaliya), Mixay Kovaliu (Rumıniya), Zlatko Matesa (Xorvatiya), Kristina Vasilianov (Moldova), Liney Halldorsdottir (İslandiya) və Uşi Şmitz (Almaniya) seçiliblər.

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*







Yay Olimpiya Oyunlarına 38 gün qalır



## Fərid Qayıbov Beynəlxalq Gimnastika Federasiyasının prezidentliyinə namizəd oldu



Beynəlxalq Gimnastika Federasiyasının (FIG) prezidenti vəzifəsinə namizədlərin adları açıqlanıb. Onlardan biri Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbovdur.

Digər namizəd isə FIG-in hazırkı rəhbəri olan yaponiyalı Morinari Vatanabedir.

Qeyd edək ki, yeni prezident bu il noyabrın 6-da qurumun Türkiyənin Antalya şəhərindəki 83-cü Konqresində seçiləcək.

## Daha 5 paralimpiyaçımız Tokio-2020-yə vəsiqə qazandı

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) atletika idman növü üzrə milli komandasının üzvləri Elvin Astanov, Elmir Cəbrayılov, Səid Nəcəfzadə, Həmid Heydərli və Yelena Çebanu Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarında ölkəmizin idman şərəfini qoruyacaqlar.

AMPK-dan "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, sonuncu açıq Avropa çempionatında uğurla iştirak etmiş idmançılarımız E.Astanov, E.Cəbrayılov, S.Nəcəfzadə və H.Həmidli, eləcə də reytinq xalları qazandıran yarışlarda yüksək nəticələr əldə etmiş Y.Çebanu Tokio-2020-də iştirak hüququ qazanıblar.

Beləliklə, Tokio-2020 Yay Paralimpiya Oyunlarında ölkəmizi təmsil edəcək atletlərimizin sayı 8-ə çatıb. Oluxan Musayev, Kamil Əliyev və Samir Nəbiyev daha əvvəl dünya çempionatında göstərdikləri nəticələrə görə Oyunlara iştirak hüququ qazanmışdırlar.

Tokio-2020-yə lisenziya qazanmış Oluxan Musayev, Samir Nəbiyev və Elvin Astanov nüvəitələmə, Elmir Cəbrayılov və Yelena Çebanu qaçış, Kamil Əliyev və Səid Nəcəfzadə uzunluğa tullanma, Həmid Heydərli isə nizəatma növündə iştirak edəcəklər.

Qeyd edək ki, bu günədək AMPK-nın idmançıları Tokio-2020-yə artıq 18 lisenziya əldə ediblər. Onlardan 8-i atletika, 4-ü parataekvondo, 3-ü üzgüçülük, 2-i güllə atıcılığı və 1-i pouerliftinq növündəndir.

## 12 boksçumuzdan 10-u fəxri kürsüdə yer aldı

Belarusun paytaxtı Minskdə yeniyetmə boksçular arasında Vladimir Botvinninkin xatirəsinə həsr olunmuş beynəlxalq turnir keçirilib. 8 ölkədən 120-dən çox idmançının mübarizə apardığı yarışda Azərbaycan boksçuları da qüvvələrini sınayıblar. Turnirdə baş məşqçi Vaqif Kazımov, məşqçilər Ağası Məmmədov və Vüqar Məmmədovun rəhbərliyi altında 12 (10 oğlan, 2 qız) boksçumuz mübarizə aparıb. Onlardan 10-u çıxışını medalla başa vurub. Yığmamız 3 qızıl, 2 gümüş və 5 bürünc medala sahib çıxıb.

Finalda boksçularımızdan Kənan Babayev (48 kq) Humoionmirzo Abdurasulovu (Özbəkistan), Məhəmmədəli Qasımzadə (54 kq) Fərrux Tulağanovu (Özbəkistan), Emili Rzayeva (63 kq) Anna Seredanı (Belarus) məğlub edərək, qalib adına yiyələniblər.

Həlledici görüşdə məğlub olan Mahir Süleymanovla (52 kq), Fərhad Şeydayev (63 kq) gümüş medalla kifayətləniblər. Tofiq Quliyev (46 kq), Əvəz Əliyev (50 kq), Fuad Babayev (60 kq), Sənan Hətəmov (63 kq) və Liliya Bulatova (57 kq) isə bürünc medala sahib olublar.

Yığmamız yarışın yekunlarına görə, Belarus və Özbəkistandan sonra komanda hesabında üçüncü yeri tutub.

Qeyd edək ki, turnirdə iştirak iyulda Tbilisidə keçiriləcək Avropa birinciliyinə hazırlıq xarakteri daşıyıb.



## Atletimiz Ukraynada çempion oldu



Atletika üzrə yığma komandamızın üzvü Anna Skidan Açıq Kiyev çempionatında iştirak edib. Təmsilçimiz turnirin çəkicatma yarışlarında qüvvəsini sınayıb. Yarışda 73.50 metr nəticə göstərən Anna Skidan çempionatın qalibi olub.

Qeyd edək ki, Anna Skidan Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya qazanıb.

## BOK-dan Başta ilə bağlı xoş xəbər




Azərbaycan qılıncoynadanı Anna Baştaya Tokio-2020 Yay Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanıb.

Beynəlxalq Olimpiya Komitəsi (BOK) milliləşən legionerin ölkəmizi təmsil etməsinə icazə verib.

Bunu qurumun rəsmisi Mark Adams açıqlayıb. O bildirib ki, sablyaçı Rusiya deyil, Azərbaycanı təmsil edəcək: "Qərara alınıb ki, Anna Başta artıq Olimpiya Oyunlarında Rusiya deyil, Azərbaycanı təmsil etsin".

Tolyatti şəhərində anadan olan qılıncoynadan 2019-cu ildən Azərbaycan yığmasının şərəfini qoruyur. Lakin onun Tokio-2020-də iştirakı üçün BOK-un razılığı lazım idi ki, bu məsələ də müsbət həllini tapıb. Apreldə Olimpiadaya lisenziya qazanan A.Başta bu turnirdə Azərbaycan bayrağı altında çıxış edə biləcək.

Qeyd edək ki, Anna Rusiya millisinin heyətində 2015-ci ildə Universiadanın qızıl, 2017-ci ildə Avropa çempionatının gümüş medalını qazanıb.

## Cüdo millimiz dünya çempionatını bir bürünc medalla başa vurdu

Macarıstanın paytaxtı Budapeştdə keçirilən cüdo üzrə dünya çempionatına yekun vurulub. 118 ölkədən 661 (383 kişi, 278 qadın) cüdoçunun iştirak etdiyi yarışda Azərbaycan cüdoçuları da qüvvələrini sınayıblar. Komandamız Tokio-2020-yə lisenziya xarakterli yarışda 12 (9 kişi, 3 qadın) idmançı ilə təmsil olunub. Təmsilçilərimizdən yalnız Kəramət Hüseynov turniri medalla başa vurub. Nüfuzlu yarışda 60 kiloqram çəki dərəcəsində çıxış edən cüdoçumuz iranlı Məhəmməd Raşnonzadə, Moldova təmsilçisi Nikolae Foca, Yaponiya idmançısı Ryuju Nagayamadan üstün olaraq 1/4 finala yüksəlib. Fransalı Valid Xyara məğlub olan Kəramət təsəlliverici görüşdə Monqolustan təmsilçisi Unubold Lxagvajamtsa qalib gələrək bürünc medal uğrunda mübarizə aparıb. Qazaxıstan cüdoçusu Şamşadin Məğjxanı məğlub edən Kəramət Hüseynov dünya çempionatını üçüncü pillədə başa vurub. Bu komandamızın çempiontda ilk və son medalı olub.

## Federasiyanın vitse-prezidenti cüdoçularla görüşdü

Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Sadıq Sadıqov Şahdağda təlim-məşq toplanışında olan kişilərdən ibarət milli komandanın üzvləri ilə görüşüb. Əvvəlcə yığmanın baş məşqçisi Ruslan Maşurenko və məşqçi Elxan Məmmədov gələn ay Yaponiyanın paytaxtı Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarına hazırlıq barədə məlumat veriblər. Onlar müxtəlif ölkələrdə yüksək səviyyədə təlim-məşq toplanışları keçdiklərini və ayrı-ayrı turnirlərdə medallar qazandıqlarını diqqətə çatdırıblar. Hər iki mütəxəssis, həmçinin millinin üzvləri Olimpiya oyunlarında layiqli nəticələr göstərmək üçün əllərindən gələni edəcəklərini vurğulayıblar.

Öz növbəsində, Sadıq Sadıqov dövlət səviyyəsində idmana, o cümlədən, cüdoya göstərilən qayğını xüsusi vurğulayıb. O, federasiya rəhbərliyi adından cüdoçulara gələcək nüfuzlu yarışda uğurlar arzulayıb.

Qeyd edək ki, cüdoçular Qusardan sonra Bakıda, Xorvatiyada və Rusiyada da təlim-məşq toplanışları keçəcəklər.

## BOK 2032-ci ildə keçiriləcək Olimpiya Oyunlarına ev sahibliyi edəcək ölkəni təklif etdi

Beynəlxalq Olimpiya Komitəsinin İcraiyyə Komitəsi (BOK) 2032-ci ildə Yay Olimpiya Oyunlarının Avstraliyanın Brisben şəhərində keçirilməsi təklifi ilə çıxış edib. Bu barədə komitənin mətbuat xidməti məlumat verib. Olimpiya Oyunlarına ev sahibliyi etmək üçün əsas iddiaçı olan Brisbenin müzakirə olunmasına dair qərar onların keçiriləcəyi yerin seçilməsi üzrə Komissiyanın tövsiyyəsi əsasında qəbul edilib. Lakin yekun qərar BOK-un Tokioda keçiriləcək işçi sessiyasında qəbul ediləcək.

BOK-un məlumatında qeyd olunur ki, Brisben artıq mövcud və müvəqqəti idman obyektlərinin 84 faizini istifadə edərək plan təqdim edib. Qalan meydançalar sürətlə inkişaf edən əhalinin tələbatını ödəmək üçün oyunların vaxtından əvvəl və keçiriləcəyi məkandan asılı olmayaraq təhvil veriləcək. BOK qeyd edir ki, Brisben ərizəsində yerli hökumət və əhali tərəfindən güclü dəstək var və 2032-ci il Olimpiadasının keçirilməsi üzrə məqsədli dialoqun başlanması üçün bütün tələblərə cavab verir.

## Müxalifət lideri Olimpiya Oyunlarının ləğvini tələb edir

Yaponiya müxalifətinin aparıcı qüvvəsi, Yaponiya Konstitusiya Demokrat Partiyasının rəhbəri Yukio Edano iyulun 23-dən avqustun 8-dək Tokioda keçirilməsi planlaşdırılan Yay Olimpiya Oyunlarını ləğv etməyə və ya təxirə salmağa çağırıb. Siyasətçinin sözlərinə görə, olimpiadanın koronavirus pandemiyası şəraitində keçirilməsi məqsədəuyğun deyil.

"Mən idmançılar naminə oyun keçirmək arzusunu başa düşürəm. Lakin Olimpiada ya yenidən bir il təxirə salınmalı, ya da tamamilə ləğv olunmalıdır", - deyə Y.Edano bildirib. Siyasətçi əlavə edib ki, olimpiadanın keçiriləcəyi təqdirdə Yaponiyada koronavirus infeksiyasının yeni dalğasının "inanılmaz yüksək riski" gözləniləcək.

## Pekin-2022 Qış Olimpiya Oyunları təxirə salına bilər

Amerikalı millət vəkilləri Maykl Makkol, Qreqori Miks, Mayk Qallaher və Tom Malinovski 2022-ci ildə Pekində keçirilməsi planlaşdırılan Olimpiya Oyunlarını təxirə salmağı təklif ediblər. Onlar artıq ABŞ Konqresinin aşağı palatasına müvafiq qətnamə də təqdim ediblər.

Bu addıma səbəb isə Sintszyan-Uyğur muxtar rayonunda kütləvi repressiyalardır.

"Əgər uyğurların təqib olunması və digər pozuntular davam edərsə, Olimpiadanın keçirilməsi üçün təcili alternativ obyektlərin axtarışı prosesinə başlamaq lazımdır", - deyə qətnamədə bildirilir.

Qeyd edək ki, bundan əvvəl digər ölkələrdən olan siyasətçilər də 2022-ci il fevralın 4-dən 20-dək keçirilməsi planlaşdırılan Pekin Qış Olimpiya Oyunlarını boykot etməyə çağırırdılar.

# OLİMPİYA 20 DÜNYASI



# Unudulmayan sənətkarlarımızın idmanla bağlı maraqlı xatirələri

*20 illik yubileyinə hazırlaşan "Olimpiya dünyası" qəzeti müxtəlif illərdə geniş oxucu marağına səbəb olan yazılardan ən yaddaqalan məqamları təkrar nəşr etməkdə davam edir. Qəzetimizin ötən sayında "İdmançı sənət, sənətçi idman" rubrikası altında bir vaxtlar unudulmaz mərhum sənətkarlarımızla hazırladığımız müsahibələrdən bir neçəsini nəşr etmişdik. Bu sayımızda da ənənəni davam etdirərək, Xalq artistləri Yaşar Nuri və Həsən Məmmədovla müsahibələrdə yer alan idmanla bağlı xatirələri diqqətinizə çatdırırıq. Mərhum sənətkarlarımızın bu sahə ilə bağlı fikirləri heç zaman yaddaşlardan silinməyəcək.*





## Yaşar Nuri: "Əsl futbol dar dalanda oynanılan futboldur"

Uşaqlıq illərim Bakının "Sovetski" küçəsində, bir də Gəncədə keçib. Gəncədə məhəllələr geniş, "Sovetski" isə əksinə, olduqca dar idi. Qonşu uşaqları ilə həmişə futbol oynayardıq. Özü də o vaxt "top" yox, "kos" deyərdik. Vova adlı bir qonşumuz var idi, kosu həmişə o gətirərdi. Bir ayağı şikəst idi, o, qol vurmayana qədər biz gözləməyə məcbur olurduq. Çünki Vova qol vurmayanda kosunu götürüb gedirdi. Hücumçu idim. Əlbəttə, qol vurduğum anlar çox olurdu. İdmana sevgi və maraq məndə o vaxtdan yaranıb. Məncə, əsl futbol elə dar dalanda oynanılan futboldur. Ən dar dalandan geniş meydançaya çıxanda, elə bil, quşu qəfəsdən buraxırsan, oynamaq asan olur.

### "Şahmat siyasətdir, mən isə siyasəti başa düşmürəm"

Sonra yüngül atletikaya meyl saldım. Bir dəfə necə oldusa, yıxıldım. O vaxtdan idmandan uzaqlaşdım. Amma daim yarışlarla maraqlanır, reportajları izləyirdim. Əslində, bizim sənətimiz də elə idmandır. Əvvəla, biz də idmançılar kimi xeyli məşq edirik. İkincisi, mən səhnədə bir yerdə dayanan aktyor deyiləm. O qədər ora-bura qaçıram ki...

Şahmat oynaya bilmirəm. Mənim aləmimdə şahmat siyasətdir. Mən isə siyasəti başa düşmürəm. Boyumun balaca olmasına baxmayaraq, voleybol da oynamışam.

### "Boksa baxanda heç ruhum da incimir"

Qohumlarımın əksəriyyəti idmanla məşğul olur. Onların içərisində boksçular da var. Qoy heç kim məndən inciməsin. Boksda qulaq da bata bilər, amma gərək çənə əyilməsin. Futbolda badalaq var, boksda çənə əymək. Boksda möhkəm yumruq əsas şərtdir. Bəzi ürəyiyumşaq sənətçilərdən fərqli olaraq, mən boksa baxanda heç ruhum da incimir. Əksinə, fikirləşirəm ki, birdən mənə boksçu rolu həvalə edilsə, necə döyüşməyi onlara baxıb öyrənməliyəm.

### "Üzmürəm, süzürəm"

Üzə bilmirəm. Uzaqbaşı 20 metr üzürəm. Məncə, yaxşı kişi dayazda yox, dərində batar. Mən də dərinə getmirəm, öz qabiliyyətimə bələdəm axı. Üzməyi bacaranlara qıbtə ilə baxıram. Çimərliyə gedəndə təzəcə üzməyə başlayıram ki, camaat başıma yığışır. Daha bilmirlər ki, mən üzmürəm, süzürəm.

### "Atamın ən çox sevdiyi idman növü fiqurlu konkisürmə idi"

Atamın idmana böyük marağı vardı. Ən çox sevdiyi idman növü fiqurlu konkisürmə idi. Biz yatırdıq, gecənin bir aləmində bir də görürdük, qışqırdı. Soruşanda ki: "Ay kişi, gecə 2-nin yarısıdır, nə olub?", deyirdi: "Düz oynamadılar". Bayaq dediyim kimi, "Sovet" küçəsində yaşayanda dar bir dalanda beş nəfər o yanda , beş nəfər bu yanda futbol oynayardıq. Vaqif Səmədoğlu demişkən: "Yeddi addım o yana, yeddi addım bu yana, bir siqaret o yana, bir siqaret bu yana". Atam da gəlib bizə tamaşa edərdi. Deyərdi ki, bunlara bax ey, elə bil dünya çempionatında oynayırlar.

### "İstərdim ki, qəzetinizdə idman xəbərləri ilə yanaşı, sənət xəbərlərinə də yer ayrılsın"

İdman xəbərlərini, əlbəttə, izləyirəm, özü də müntəzəm olaraq. Onu da deyim ki, televiziyadan hər hansı bir oyunu izləyəndə daha çox həyəcanlanıram. Evdə o qədər kubokum, vımpellərim və məşhur idmançıların avtoqrafları ilə bağışlanmış kitabçalarım var ki. Amma o haqda sizə heç nə deməyəcəyəm. Yaxşı olardı ki, evimə gəlib, özünüz gözünüzlə görəsiniz.

"Olimpiya dünyası" qəzetinə idman mətbuatı olsa da, sənət adamlarını unutmadığına, məşhur sənətkarların sənət və idman haqqındakı fikirlərini oxuculara müntəzəm çatdırdığına görə təşəkkür edir, kollektivinizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram. İstərdim ki, qəzetinizdə idman xəbərləri ilə yanaşı, sənət xəbərlərinə də yer ayrılsın.





## Həsən Məmmədov: "Rəqibimin burnunu sındırandan sonra boksdan uzaqlaşdım"

Uşaqlığım İkinci Dünya müharibəsi illərinə təsadüf edib. O qanlı-qadalı illərdə futbol oynamağa topumuz yox idi. Ona görə də evdən köhnə corablar gətirərək, onları iç-içə yığıb kos düzəldər, sonra da corabdan hazırlanmış kosla futbol, voleybol oynayardıq. Bir gün çəmənlikdə futbol oynayanda ayağımı şüşə kəsdi. Yara çox dərin idi, indiyə qədər o kəsiyin yeri qalıb.

Bir də şıppa-şıppa oynamağı çox sevərdik. Yəqin bu oyun növünün adını birinci dəfə eşidirsiniz. İti uclu ağacı palçığa vurardıq. Mənim atdığım ağac o biri uşağın palçığa batmış ağacını aşırırdısa, onda oyunu udmuş olurdum. O vaxt odundan mərcləşərdik. Yadıma gəlir, bir dəfə mərci udub, evə bir qucaq odunla qayıtmışdım.

### "Boksla məşğul olmuşam"

Universitetdə oxuduğum illərdə boksla da məşğul olmuşam. Bir gün rinqə çıxanda bircə zərbə ilə rəqibimin burnunu sındırdım. Məşqçi onu yavaş-yavaş ayağa qaldıranda gördüm ki, burnundan qan axır. Düzünü deyim ki, bərk qorxdum. O hadisədən sonra bir daha boksla məşğul olmadım. Zərbələrim çox güclü idi, amma özüm də hücuma məruz qalırdım.

### "Kürdə tək qolla üzürdüm"

İl yarım ADU-da oxuyandan sonra təhsilimi yarımçıq qoyub, İncəsənət İnstitutuna daxil oldum. Evimiz Kürün sahilində yerləşirdi. Ona görə də yayda evdən səhər çıxar, axşam qayıdardım. Demək olar ki, bütün günüm Kür çayında üzməklə keçər, axşam evə gələndə dərim qırış-qırış olardı. İnanın ki, xörəyimi də çayda yeyərdim. Bir tikə pendir-çörək, bir salxım üzüm götürüb, Kürə girər, bir qolla üzə-üzə çayın o biri sahilinə gedərdim. Atam həmişə: "Özünlə kamera götür, batarsan",- deyərdi. Mən də götürərdim, amma heç vaxt onunla üzməzdim. Cavanlıq idi, əgər kamera ilə üzsə idim, yoldaşlarım məni qorxaq adlandırardılar.

### "Xəzərin dərinliklərində gördüyüm gözəlliyi indi də xatırlayıram"

Xəzərdə üzməyi çox xoşlayıram. "Möcüzələr adası" filminin çəkilişləri Neft Daşlarında aparılırdı. Arzulayırdım ki, kaş üzməyə boş vaxtım olsun. Bir gün Moskvadan gəlmiş Xabalov adlı bir aktyor, necə deyərlər, saqqızımı oğurladı. "Bu istidə nə oturmusan, gəl üzək", - dedi. Razılaşdım. Özümüzə üzgəc, nəfəs borusu, eynək alıb dənizin dibinə baş vurduq. Xəzərin dərinliklərində gördüyüm gözəl mənzərələri indi də xatırlayıram. Bir gün üzə-üzə Xabalovla estakadalardan xeyli uzaqlaşdıq. Bu vaxt 30-a yaxın suiti bizə yaxınlaşdı. Neftçilər demişdilər ki, gördünüz, suitilər sizə hücum edir, onların burnuna kiçik bir çırtma vurun. Bu, suitilərin ən zəif yeridir. Bir təhər canımızı qurtardıq.

### "Həsənağa Turabovu mat eləməyə çalışsam da, alınmırdı"

Özümü peşəkar şahmatçı hesab etmirəm. Kinostudiyada filmlərin çəkilişi və səsləndirilməsi zamanı boş vaxtlarımızda aktyorlarla şahmat oynayardıq. Ən yaxşı oynayanımız mərhum Həsənağa Turabov idi. Onu mat etməyə çox çalışsam da, alınmırdı.

### "Çəkilişin qızğın vaxtında at məni götürüb qaçdı"

İlk dəfə filmdə at sürmüşəm. "Yeddi oğul istərəm" filminin çəkilişlərində dedilər ki, bütün aktyorlar at sürməlidirlər. At saxlanılan yerdəki meydançada yavaş-yavaş at sürməyi öyrəndik. Nəsib adlı məşqçimiz bizə bu idman növünün incəliklərini öyrədirdi. Qobustanda daşlı-çınqıllı yerdə at çapırdıq. Bir dəfə çəkilişin qızğın vaxtında, yəni Gəray bəylə döyüş səhnəsində at məni götürüb qaçdı. Nəsib demişdi ki, at ancaq yatdığı yerdə dayanır. Atın adı Maroqqa idi. Doğrudan da, o, qayaların arası ilə gəlib düz saxlanıldığı yerdə dayandı. Əgər başımı atın yalmanına sıxmasa idim, əməlli-başlı zədələnəcəkdim. Özümə gəldim və piyada çəkiliş yerinə qayıdanda gördüm ki, Nəsib arxamca gəlir. Başıma gələnləri ona danışanda: "Yaxşı qurtarmısan",- dedi. Amma bəzi yoldaşlar elə bilmişdilər ki, atı özüm oraya çapmışam.

# Oleq Krapivin:
# "Özümü həmişə azərbaycanlı hesab etmişəm"

***Xalqımız hər zaman öz gözəl xüsusiyyətləri ilə dünyada böyük nüfuz qazanıb. Bu, bizim vətəndaşlarımızın insani keyfiyyətlərinin geniş təcəssümüdür. Xeyirxah, mehriban və qonaqpərvər olan xalqımızın nümayəndələri daim bu ənənəni qoruyub saxlayırlar.***



Dünyanın hər bir yerində yaşayan neçə-neçə soydaşımız Azərbaycanın adını şərəflə qoruyur, daima uca tuturlar. Belə soydaşlarımızdan biri də Ukraynada yaşayan Azərbaycanın əməkdar idman ustası və sərbəst güləş üzrə keçmiş SSRİ və ölkəmizin əməkdar məşqçisi, SSRİ və Avropa yarışlarının qalibi, veteranlar arasında dünya çempionu Oleq Krapivindir. Vətəndən kənarda yaşamasına baxmayaraq ürəyi hər zaman doğulduğu Azərbaycanla döyünür. Kiyevdə yaşayan həmyerlimiz doğulduğu yeri və böyüdüyü şəhəri daim xatırlayır. Oleq Krapivin müsahibələrindən birində deyir: "Vətənim üçün nə etsəm, azdır. Rus olsam da, özümü həmişə azərbaycanlı hesab etmişəm. Bu torpağa, insanlara bağlılığım olub. Hətta toyum belə, Azərbaycan adətənənələrinə uyğun keçib. Uşaqlığımın ən gözəl günləri Sabunçu rayonu ilə bağlıdır. Böyüdüyüm məhəllənin küçələri, tinləri, insanları həmişə gözümün önündə canlanır. Güləşə olan marağım isə məni bu idman növü ilə daha peşəkar şəkildə məşğul olmağa vadar etdi. Buna görə də oxuduğum 68 nömrəli məktəbdə təhsilimi yarımçıq qoyub, Bakıxanov qəsəbəsindəki idman təmayüllü internat məktəbinə getdim. Beləcə, həyatımın ayrılmaz hissəsi olan güləşçi karyeram başladı".



Oleq Krapivin 1960-cı il sentyabrın 29-da Şamaxı rayonunun Şəhriyar qəsəbəsində anadan olub. 1966-cı ildə ailəsi ilə birlikdə Bakıya köçüb. İlk təhsilini Sabunçu rayonu 68 saylı orta məktəbdə alsa da, sonra təhsilini Bakıxanov qəsəbəsində yerləşən idman təmayüllü internat məktəbində davam etdirib. Sərbəst güləş üzrə 14 qat Azərbaycan çempionudur. Yığma komandalar səviyyəsində müxtəlif beynəlxalq turnirlərin qalibi olub. 2007-ci il onun həyatında ən əlamətdar il olub. O, Türkiyənin İstanbul şəhərində veteranlar arasında keçirilən yarışda sərbəst güləş üzrə dünya çempionu adını qazanır. 1989-cu ildən Kiyev şəhərində yaşayır. Ailəlidir, 4 övladı var. Xeyriyyəçiliklə məşğul olan həmyerlimiz istər Azərbaycanda, istərsə də Ukraynada idman sahəsinə, uşaq evlərinə və ehtiyacı olan ailələrə yaxından köməklik göstərir.

### Kiyevdə "Bakinets"...

Oleq Krapivinin maddi dəstəyi və təşəbbüsü ilə hər bir sahədə uğurlu tədbirlər keçirilir. Kiyevdə yaşayan həmyerlilərimiz bu diqqəti daim hiss edirlər. Belə ki, 2016-cı ildə Ukrayna paytaxtının böyük "Dream Town-1" ticarət-əyləncə mərkəzində sərbəst güləş üzrə "Bakinets" idman klubu açılıb. Bu klub həmvətənimizin təşəbbüsü və sponsorluğu ilə fəaliyyətə başlayıb. "Bakinets" güləş zalı, trenajorları, zəruri avadanlığı, soyunub-geyinmə və duş otaqları, habelə tibb məntəqəsi olan müasir, idman klubudur. O.Krapivin klubun açılış zamanı bildirib ki, harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı həyat və fəaliyyətinin bütün sahələrində ölkəsini, vətənini fəal təbliğ etməlidir.

O.Krapivin vurğulayıb ki, "Bakinets"in fəaliyyətə başlaması ilə dost Ukraynada Azərbaycan idmanının təbliğinə öz töhfəsini vermək istəyir. Həmin vaxtdan etibarən güləş məktəbində bir sıra yarışlar təşkil olunur. Bu il iyunun 6-da Kiyevdə yerləşən "Bakinets" idman mərkəzində yeniyetmələr və gənclər arasında güləş üzrə yarış keçirilib. Yarışda müxtəlif bölgələri təmsil edən 150 idmançı qüvvəsini sınayıb. Oleq Krapivinin maddi dəstəyi ilə keçirilən yarışda çıxış edən həmyerlimiz bunları deyib: "Bugünki yarış uşaqların müdafiəsi gününə həsr olunur. İstəyirik ki, bizim uşaqlar sağlam cəmiyyətdə yetişsinlər, pis vərdişlərdən uzaq olsunlar. Burada çıxış edən güləşçilər gələcəkdə Azərbaycan və Ukrayna yığmalarına əsas namizədlərdən olacaqlar. Hər zaman çalışacağam ki, onlara hər cür dəstək göstərim". Müxtəlif çəki dərəcələrində qalib və mükafatçılar müəyyənləşdikdən sonra onlara diplom və qiymətli hədiyyələr təqdim olunub. Oleq Krapivin bildirib ki, belə bir yarış yeni il ərəfəsində də təşkil ediləcək.



### ...Şamaxıda isə "Şirvan" güləş klubu

2017-ci il sentyabrın 29-da Şamaxıda Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi Oleq Krapivinin adını daşıyan "Şirvan" güləş klubunun açılış mərasimi keçirilib. Klubun açılış mərasimi O.Krapivinin şərəfinə Şamaxıda təşkil olunan V açıq respublika turniri çərçivəsində baş tutub. Tədbirdə Azərbaycan, Ukrayna və Qırğızıstanın Güləş federasiyalarının rəsmiləri, idmançılar, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Həmin vaxtdan etibarən "Şirvan" bir sıra yarışlara ev sahibliyi edib. Belə bir mötəbər tədbir ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə may ayının 10-da Şamaxı rayonununda baş tutub. Əməkdar bədən tərbiyəsi və idman xadimi, Heydər Əliyev adına Ukrayna-Azərbaycan Təhsil, Elmi-Mədəni, İdman Mərkəzinin təsisçisi, Ümumukrayna Azərbaycanlıları Konqresinin Kiyev şəhər təşkilatının rəhbəri, sərbəst güləş üzrə dəfələrlə Azərbaycan çempionu, veteranlar arasında dünya çempionu, müxtəlif turnirlərin qalibi, əməkdar məşqçi, xeyriyyəçi insan Oleq Krapivinin şəxsi vəsaiti hesabına tikilib, istifadəyə verilən "Şirvan" güləş klubunun idman zalında açıq birincilikdə Şamaxı güləşçiləri ilə bərabər paytaxt pəhləvanları da qüvvələrini sınayıblar. Bundan başqa Şamaxada dəfələrlə Oleq Krapivinin şərəfinə turnirlər də təşkil olunub.

### "Mən Azərbaycanlıyam" mahnısı Ukraynada səsləndi



Qeyd etdiyimiz kimi, Oleq Krapivin hər zaman həmyerlilərimizdən öz dəstəyini əsirgəmir. Onların hər bir sahədə qarşılaşdığı problemləri həll etməyə çalışır. İstedadlı soydaşlarımızın püxtələşməsinə köməklik edir. Oleq Krapivinin istedadına dəstək verdiyi gənclərdən biri də Rüfət Xəlilovdur. Vətəndən kənarda yaşamasına baxmayaraq azərbaycanlı olduğu ilə fəxr edən gənclərimizdən olan Rüfət təyyarə pilotudur. O, musiqi sahəsində də kifayət qədər uğur qazanıb. Azərbaycanın idman gimnastikası üzrə Əməkdar məşqçisi, SSRİ-nin əməkdar məşqçisi Çingiz Şamilovun nəvəsi olan Rüfət idman sahəsində də öz bacarığını nümayiş etdirib. Bu yaxınlarda Rüfət Xəlilovun ifasında səslənən "Mən Azərbaycanlıyam" mahnısına klip çəkilib. Səhnə adı ADAM olan Rüfət Xəlilov özü yazıb, bəstələdiyi mahnıya çəkilən klipin də rejissorudur. Rəng korreksiyası "Road Film Company" – Oktay Məmmədov tərəfindən həyata keçirilib.

Xatırladaq ki, "Mən Azərbaycanlıyam" proekti - Əməkdar Bədən Tərbiyəsi və İdman xadimi, SSRİ-nin və Azərbaycanın əməkdar məşqçisi, veteranlar arasında güləş üzrə dünya çempionu, Kiyev Azərbaycanlıları Konqresinin sədri Oleq Krapivinin dəstəyi ilə ərsəyə gəlib.

*Anar Əhmədov*

***Polşanın paytaxtı Varşavada güləş üzrə "Poland Open" turniri keçirilib. Reytinq xarakterli yarışın ilk günlərində sərbəst güləşçilərimiz mübarizə aparıblar. Baş məşqçi Namiq Abdullayev və böyük məşqçi Zəlimxan Hüseynovun rəhbərliyi altında Hacı Əliyev (70 kq), Hacımurad Hacıyev (74 kq) və Şərif Şərifov (97 kq) xalça üzərinə çıxıblar.***

# Güləşçilərimiz "Poland Open" turnirini 5 medalla başa vurdular



Təmsilçilərimizdən yalnız Hacı Əliyev və Hacımurad Hacıyev mükafatçılar sırasında yer alıblar.

A qrupunda yer alan Hacı Əliyev ilk turda Özbəkistan pəhləvanı üzərində inamlı qələbə qazanıb. Həmyerlimiz daha sonra qazax həmkarını vaxtından əvvəl üstələyib. Üçüncü turda gürcü rəqibindən də güclü olan pəhləvanımız qrup qalibi kimi yarımfinala yüksəlib. Ancaq finalın bir addımlığında ABŞ təmsilçisinə xalların keyfiyyətinə görə uduzub. Bürünc medal uğrunda yenidən Gürcüstan güləşçisi ilə qarşılaşan H.Əliyev rəqibinə minimal fərqlə qalib gəlib.

Mübarizəyə 1/4 finaldan başlayan digər güləşçimiz Hacımurad Hacıyev (74 kq) isə iranlı rəqibi üzərində əzmkar qələbə qazanıb. Lakin güləşçimiz yarımfinalda İranın digər təmsilçisinə məğlub olub. Üçüncü yer uğrunda mübarizə aparan H.Hacıyev Polşa güləşçisini asanlıqla üstələyərək bürünc medala sahib olub.

Yarışların üçüncü günündə isə qadın güləşçilər xalça üzərinə çıxıblar. Qadın güləşi üzrə komandamızın lideri Mariya Stadnik də Polşada qüvvəsini sınayıb. Turnirdə 50 kq çəki dərəcəsində mübarizə aparan güləşçimiz startda Rumıniya idmançısı Emiliya Alina Vuku tam üstünlüklə məğlub edib. Dördəbir finalda ABŞ təmsilçisi Erin Qolston qadın güləşinin canlı əfsanəsi qarşısında cəmi 1 dəqiqə 18 saniyə duruş gətirə bilib. Yarımfinalda təmsilçimiz rusiyalı Mariya Tiumerekova ilə qarşılaşıb. Rəqibini məğlub edən M.Stadnik finala adlayıb. Həlledici görüşdə Ukrayna idmançısı Oksana Livaçı üstələyən M.Stadnik turnirin qızıl medalına sahib olub.

Qadın güləşçilərindən sonra klassiklər Polşada mübarizəyə başlayıblar. Turnirdə 82 kiloqram çəki dərəcəsində iştirak edən yunan-Roma güləşçimiz Rafiq Hüseynov debütdə danimarkalı rəqibinə qalib gəlib. Həmyerlimiz yarımfinalda ukraynalı güləşçiyə minimal fərqlə məğlub olub. R.Hüseynov üçüncü yer uğrunda görüşdə Norveç idmançısına qalib gələrək bürünc medala layiq görülüb.

Sonuncu yarış günündə daha bir yunan-Roma güləşçimiz bürünc medala sahib çıxıb. 97 kq çəki dərəcəsində çıxış edən İslam Abbasov təsnifat mərhələsində Türkiyə güləşçisinə qalib gəlib. Həmyerlimiz 1/4 finalda İran idmançısına məğlub olub. Rəqib finala yüksəldiyi üçün İ.Abbasov təsəllverici görüşə çıxıb və danimarkalı rəqibi üzərində inamlı qələbə qazanıb. Son qarşılaşmada yerli pəhləvanı üstələyən İslam bürünc medala layiq görülüb.

Beləliklə, güləşçilərimiz "Poland Open" turnirini 1 qızıl və 4 bürünc medalla başa vurublar.

Qeyd edək ki, beynəlxalq dərəcəli hakim Sədi Quliyev turnirdə ədaləti qoruyacaq.



# Federasiya prezidenti peşəkar döyüşdə iştirak edəcək idmançımızla görüşüb

İyunun 11-də Azərbaycan Kikboksinq Federasiyasının prezidenti Orxan Əliyev peşəkarlararası milli komandanın baş məşqçisi, Əməkdar məşqçi Elşən Abdulrəhimov və milli komandanın üzvü Ruslan Musayevi qəbul edib.

Ruslan Musayev iyun ayının 16-sı Özbəkistanın Daşkənd şəhərində keçiriləcək 68.8 kq çəki dərəcəsində WAKO-PRO peşəkar döyüşdə iştirak edəcək.

AKF prezidenti Orxan Əliyev peşəkarlararası baş məşqçi Elşən Abdulrəhimov və Ruslan Musayev tərəfindən federasiyanın dəstəyi ilə hazırlıq məşqlərinin keçirilməsinin, həmçinin vitamin prosesinin uğurla aparılması barədə məlumatla tanış olub.

Orxan Əliyev idmançımıza öz tövsiyyələrini çatdıraraq döyüşdə uğurlar arzulayıb.

WAKO Dünya Kubokunun sahibi, dəfələrlə WAKO Dünya və Avropa çempionatlarının mükafatçısı olan DİN İC-in yetirməsi Ruslan Musayev Əməkdar məşqçi, milli komandanın lou-kik üzrə böyük məşqçisi, DİN İC-nin kikboksinq bölməsinin baş məşqçisi Hikmət Hacıyevin tələbəsidir.






# AVRO-2020 həyəcanı başladı

*İyunun 11-də futbol azarkeşlərinin səbrsizliklə gözlədiyi futbol üzrə 16-cı Avropa çempionatının final mərhələsinə start verildi. Turnirin təntənəli açılış mərasimi İtaliyanın paytaxtı Romadakı "Olimpiko" stadionunda keçirildi. Mərasim Avropa çempionatının 60 illik tarixini əks etdirən videoçarxın nümayişi ilə başlayıb. Sonra İtaliya paytaxtının təmsilçiləri "Latsio" və "Roma" klublarının canlı əfsanələri Alessandro Nesta və Françesko Totti arenadakı 16 min azarkeşi və tərəfdarları salamlayıblar.*

Daha sonra İtaliya Dövlət Polis Qrupu "Gugliemo Tell" adlı mahnını səsləndirib. Tarixi Risorcimento (İtaliyanın birləşdirilməsi) dövrünə aid formalarla arenaya daxil olan altı cəngavər və nəhəng helium şarlarla şou göstərən 12 atlet tamaşaçılara xoş anlar bəxş ediblər.

Çempionatda mübarizə aparan 24 komandanın şərəfinə səhnəyə sülhü, rəqabət ruhunu və idmanın gözəlliyini təmsil edən 24 atlet çıxıb.

İtaliyalı məşhur tenor Andrea Boçellinin dünya şöhrətli "Nessun Dorma" ariyasını ifa etməyə başlaması ilə eyni anda arenadan havaya buraxılan 24 şar Avro-2020-nin ruhunu təmsil etmək üçün birləşərək səmaya yüksəlib. Balonlar havaya qalxarkən pirotexniki effeklər mərasimə xüsusi rəng qatıb.

Ariyanın sədaları altında Türkiyə və İtaliya milli komandalarının futbolçuları stadiona daxil olublar.

Nəhayət, niderlandlı Martin Qarriks, İrlandiyanın "U2 Bono and The Edge" rok qrupu Avro-2020-nin rəsmi "Biz xalqıq" (We are the People) mahnısını ifa ediblər.

Qeyd edək ki, iyulun 11-dək davam edəcək çempionatda 24 komanda 6 qrupda mübarizə aparır.

Futbol üzrə Avropa çempionatının 60 illik yubileyi münasibətilə Avro-2020-nin oyunlarına Roma ilə yanaşı, Bakı, Sankt-Peterburq, London, Münxen, Buxarest, Kopenhagen, Amsterdam, Sevilya, Qlazqo və Budapeşt şəhərləri ev sahibliyi edir.

Təntənəli mərasimdən sonra çempionatın açılış matçına - Türkiyə - İtaliya oyununa start verilib. A qrupunda yer alan bu komandaların oyununu niderlandlı referi Danni Makkeli idarə edib. Oyunun birinci hissəsi qarşılıqlı hücumlar şəraitində keçsə də bütün qollar fasilədən sonra vurulub. AVRO-2020-nin ilk qolu avtoqol sayəsində qeydə alınıb. Matçın 53-cü dəqiqəsində Domeniko Berardinin cinah ötürməsindən sonra türkiyəli futbolçu Merih Demiral topu öz qapısına göndərib. "Skuadra adzura" növbəti dəfə matçın 66-cı dəqiqəsində fərqlənib. Türkiyə millisinin cərimə meydançasında qarışıqlıqdan istifadə edən Çiro İmmobile hesab arasındakı fərqi artırıb.

Matçın 79-cu dəqiqəsində İtaliya millisi üçüncü topu "ay ulduzlular"ın qapısından keçirib. Uğurcan Çakırın kobud səhvindən sonra Lorentso İnsinya fərqlənib.

Qalan dəqiqələr hər iki komandanın qarşılıqlı hücumları ilə keçsə də hesab dəyişilməyib.







## Turun ilk heç-heçəsi Bakıda qeydə alındı

A qrupunun digər görüşü iyunun 12-də Bakı Olimpiya Stadionunda təşkil olunub. Həmin qarşılaşmada İsveçrə və Uels komandaları üz-üzə gəliblər. Fransalı referi Klement Turpinin idarə etdiyi oyunda komandalar hərəyə bir dəfə fərqləniblər. Matçda hesabı İsveçrə millisi açıb. Oyunun 49-cu dəqiqəsində Breel Embolo künc zərbəsindən sonra dəqiq zərbə ilə Bakıda vurulan ilk qolun müəllifi olub.

Bu qoldan sonra hesabı bərabərləşdirmək üçün irəli atılan Uels komandası 74-cü dəqiqədə istəyinə çatıb. Künc ötürməsindən sonra topa başla zərbə vuran Kieffer Mur hesabda tarazlığı bərpa edib.

Matçın 85-ci dəqiqəsində İsveçrə yığmasının hücumçusu Mario Qavranoviçin Uels millisinin qapısına vurduğu qol videonəzarət (VAR) sistemində baxıldıqdan sonra qeydə alınmayıb.

Qalan dəqiqələrdə də İsveçrə komandası hesabı dəyişmək üçün təzyiqi artırsa da, istəyinə çata bilməyib və matç 1:1 hesabı ilə başa çatıb.

İlk turdan sonra İtaliya komandası A qrupunda liderliyi ələ keçirib. İsveçrə və Uels millilәri isə müvafiq olaraq, ikinci, üçüncü yerləri bölüşürlər. Türkiyə millisi isə qrup sonuncusudur.

## Skandinaviya derbisində debütantlar qələbəyə sevindilər

İyunun 12-də AVRO-2020-nin B qrupunda mübarizəyə start verilib. Qrupun ilk oyunu Danimarkada oynanılıb. Skandinaviya derbisində turnirin debütantı Finlandiya ilə Danimarka millilәri üz-üzə gəlib. Oyun meydan sahibləri üçün heç də yaxşı başlamayıb. Belə ki, matçın 42-ci dəqiqəsində "dat dinamitləri"nin futbolçusu Kristian Eriksen huşunu itirərək, yerə yıxılıb. Nəticədə matçda fasilə yaranıb. Ölüm təhlükəsi ilə üz-üzə olan 29 yaşlı yarımmüdafiəçi ilkin tibbi yardımdan sonra xəstəxanaya çatdırılıb. İki saatlıq fasilədən sonra UEFA Eriksenin səhhətinin qaydasına düşdüyünü bildirərək, matçın davam etdirilməsi barədə qərar verib. Görüş qaldığı yerdən davam etdirilib.

Oyunda hesab isə 60-cı dəqiqədə açılıb. Yoel Pohyanpalo fərqlənərək, Finlandiya millisinə qələbə qazandıran qolu vurub.

Matçın 74-cü dəqiqəsində danimarkalılar bərabərlik qolunu vurmaq imkanı əldə etsələr də, Pyer-Emil Heybyerq penaltini dəqiq yerinə yetirə bilməyib. Beləliklə, Finlandiya millisi minimal hesablı qələbə qazanaraq turnirin ilk sensasiyasına nail olub.

## "Şimal qonşularımız" doğma azarkeşlər önündə böyük hesabla məğlub oldu

Günün son oyunu isə Sankt-Peterburqda oynanılıb. B qrupunun digər təmsilçisi Rusiya doğma azarkeşlər önündə Belçika millisi ilə qarşılaşıb. Dünya reytinqində birinci pillədə qərarlaşan belçikalılar matçda meydan sahibləri üzərində inamlı qələbə qazanıblar -3:0. Qonaqların heyətində Romelu Lukaku iki, Tomas Muniyer isə bir dəfə rəqib qapısına yol tapıb. Xatırladaq ki, A qrupunda yer alan İsveçrə və Uels komandalarının Bakının Olimpiya stadionunda keçirilən görüşü heç-heçə nəticələnib - 1:1.

Qeydə alınan nəticələrdən sonra FİFA reytinqinin birincisi Belçika və turnirin debütantı Finlandiya qrupda şərikli liderlik edirlər. Digər skandinaviya təmsilçisi Danimarka üçüncü, turnirə böyükhesablı məğlubiyyətlə başlayan Rusiya isə sonuncudur.








## İngiltərə millisi ilk turdan iddiasını ortaya qoydu

İyunun 13-də AVRO-2020-nin D qrupu çərçivəsində ilk turun oyunu keçirilib. Qrupun favoritlərindən olan İngiltərə millisi Xorvatiyanı qəbul edib. Londondakı "Uembli" stadionunda təşkil olunan görüşün taleyini bir qol həll edib. Matçda yeganə qolu oyunun 57-ci dəqiqəsində İngiltərə millisinin üzvü Rahim Sterlinq vurub. Beləliklə, İngiltərə millisi Avropa çempionatına minimal hesablı qələbə ilə başlayıb.

## Avstriya sensasiyaya icazə vermədi

İyunun 13-də həmçinin Avropa çempionatında C qrupunda ilk tura start verilib. Rumıniyanın paytaxtı Buxarestdəki "Milli stadion"da keçirilən matçda Avstriya final mərhələlərinin debütantı Şimali Makedoniya komandası ilə qarşılaşıb. Hesabı 18-ci dəqiqədə Ştefan Layner açıb. Qoldan 10 dəqiqədə sonra Qoran Pandev Şimali Makedoniya millisinin mötəbər yarışda ilk qolunu vurub. Lakin 78-ci dəqiqədə Mixael Qreqoriç Avstriyanı yenidən hesabda önə çıxarıb. Bu qol həmçinin Avropa çempionatları tarixində 700-cü qol kimi qeydə alınıb.

Matçın sonlarında Avstiya növbəti dəfə rəqibini məyus edib. 89-cu dəqiqədə Marko Arnautoviç fərqlənərək, Avstriya yığmasının 3:1 hesablı qələbəsini rəsmiləşdirib.

## "Narıncılar" AVRO-2020-yə qələbə ilə başladı

C qrupunda ilk turun digər oyunu Niderland və Ukrayna millilәri arasında olub. Bakı vaxtı ilə saat 23:00-da başlayan qarşılaşma "Yohan Kroyf" stadionunda keçirilib. Matçın birinci hissəsində qapılara qol vurulmayıb. Oyunun 52-ci dəqiqəsində Jorjinyo Viynaldum hesabı açmağa nail olub. Cəmi 7 dəqiqə sonra Niderlandın hücumçusu Vaut Veqhorts hesab arasındakı fərqi ikiyə çatdırıb. Lakin ukraynalılar 75-ci və 79-cu dəqiqələrdə fərqlənməklə hesabı bərabərləşdirməyə nail oldular. Andrey Yarmolenko və Roman Yaremçuk qapını dəqiq nişan alıblar. Buna baxmayaraq, Niderland seçməsinin müdafiəçisi Denzel Dyumfres 85-ci dəqiqədə komandasına qələbə qazandıran qolu vurub.

Beləliklə, Niderland yığma komandası birinci turda Ukrayna komandasını 3:2 hesabı ilə üstələyib.

C qrupunun turnir cədvəlinə 3 xalla Avstriya komandası başçılıq edir. İkinci pillədə 3 xala malik olan Niderland yer alıb. 3-cü və 4-cü pillələrdə isə müvafiq olaraq, Ukrayna və Şimali Makedoniya yığmaları qərarlaşıb.








# Gözlənilməz hadisələr və çempionlarla zəngin möhtəşəm turnir

*(əvvəli qəzetimizin 78-ci sayında)*

## 1988

Səkkizinci Avropa çempionatı Niderland komandasının qələbəsi ilə başa çatıb. "Narıncılar" 70-ci illərdə iki dəfə dünya çempionatının finalında oynasalar da, çempion ola bilməmişdilər. Nəhayət, ölkə futbolunun atası sayılan Rinus Mihelsin başçılıq etdiyi yığma bu dəfə azarkeşlərini sevindirə bilib.

Niderlandlılar həlledici matçda SSRİ futbolçularını məğlub edərək, mükafatı əldə etdilər. Maraqlıdır ki, qrup mərhələsində sovet oyunçuları "narıncılar"ı məğlubiyyətə uğratmışdılar. Amma finalda Ruud Qullit, Marko van Basten, Frank Raykaard kimi futbolçulara malik Niderland yığması titulu əldə etməyə layiq olduğu sübuta yetirib. Finalda Bastenin Rinat Dasayevin qapısına vurduğu gözəl qol hələ də yaddaşlardan silinməyib.

## 1992

Dörd ildən sonra İsveçdə keçirilən qitə birinciliyində Hollandiya yığmasının titulu qoruyacağı gözlənilirdi. Amma tarixin gözlənilməz hadisələri AVRO-1992-nin ən sürpriz çempionat kimi yadda qalmasına səbəb olub.

90-cı illərin əvvəllərində SSRİ və Yuqoslaviya dövlətləri süquta uğradığından bu ölkələrin yığmaları final mərhələsində iştirak etməmək təhlükəsi ilə üzləşiblər. SSRİ-ni turnirdə Müstəqil Dövlətlər Birliyi komandası əvəz etsə də, yuqoslavlar eyni imkanı qazanmayıblar. Nəticədə, onları seçmə mərhələsində ikinci yeri tutan Danimarka yığması əvəz edib. Çempionatın startına bir həftə qalmış toplanan skandinaviyalılar isə İsveçdə birinci olublar. Özü də Danimarka yığması ilk iki oyunda İngiltərə ilə heç-heçə oynayıb, meydan sahibləri uduzublar. Sonuncu qrup matçında 8 il əvvəl Avropa çempionu titulunu qazanmış Mişel Platinin rəhbərlik etdiyi Fransa yığması bütün proqnozları alt-üst edərək, danimarkalılara uduzub. Qeyd edək ki, bu hadisədən sonra Mişel Platini bir daha məşqçi olmayacağını söyləyib.

Pley-offda isə Danimarka komandası əvvəlcə Hollandiya yığmasını məğlubiyyətə uğradıb. Marko van Bastenin lideri olduğu komanda onibirmetrlik zərbələr seriyasında titulla vidalaşıb. Maraqlıdır ki, oyun zamanı belə zərbəni dəqiq yerinə Basten həlledici anda qeyri-dəqiq olub.

Finalda bir vaxtlar yığmamıza başçılıq edən Berti Foqtsun komandası Almaniyada skandinaviyalıların qarışısını ala bilməyib. Nəticədə, danimarkalılar istirahətdən gəlib Avropa çempionu titulunu qazanaraq, bütün dünyanı şoka salıblar.

## 1996

1996-cı ildə futbol öz vətəninə dönüb. İngiltərədəki çempionatda ilk dəfə final mərhələsində 16 komanda yarışıb. Birincilik Almaniya yığmasının əzmkar qələbəsi ilə başa çatıb.





















Qrup mərhələsini uğurlu keçirən almanlar yarımfinalda meydan sahiblərinə qalib gəliblər. Onların finaldakı rəqibi Çexiya yığması isə pley-offda Portuqaliya və Fransa yığmalarını mübarizədən kənarlaşdırıb. Çoxları həlledici oyunda almaniyalı futbolçuların 1976-cı ilin finalındakı məğlubiyyətin əvəzini çıxacağını gözləyirdi.

Düzdür, "Uembli" stadionundakı matç heç də almanların istədiyi kimi alınmayıb. Məğlub vəziyyətinə düşən yığma yalnız Oliver Birhoffun meydana çıxması nəticəsində hesabı bərabərləşdirib. Həmin çempionatda "qızıl qol" qaydası tətbiq olunduğundan əlavə vaxtda Birhoffun vurduğu ikinci top Almaniya yığmasını qitə çempionu edib.

## 2000

AVRO-2000 ilk dəfə iki ölkənin ərazisində təşkil olunub. Niderland və Belçika qitənin ən güclü yığmalarını bir araya toplayıb. Budəfəki birincilik də öz gözəlliyi və gözlənilməz nəticələri ilə yadda qalıb.

1998-ci ildə dünya çempion titulunu qazanan Fransa yığması çempionatın favoriti hesab olunurdu. Onunla yanaşı Hollandiya, Portuqaliya və İtaliya komandaları da yarımfinalda oynamaq hüququ qazanıb. Xüsusilə, "narıncılar"ın meydan amilindən istifadə edərək, uğur qazanacağı gözlənilirdi. Amma 1/2 finalda İtaliya yığması qapısına təyin olunmuş iki 11 metrlik cərimə zərbəsini yerinə yetirə bilməyən hollandlar oyundan sonra da uğursuzluğu davam etdiriblər. Digər yarımfinal matçında isə Fransa yığması Zidanın vurduğu qol sayəsində finalçı olub.

Finalda İtaliya yığması 92 dəqiqə hesabda irəli olsa da, hakimin əlavə etdiyi üçüncü dəqiqədə qapısından qol buraxıb. Çempion titulunu bayram etməyə hazırlaşan italiyalılar Silvyen Viltordun vurduğu qolla gözlənilməz zərbə alıblar. Bundan özünə gələ bilməyən italyanlar əlavə vaxtda daha bir qol buraxaraq, 32 ildən sonra çempion olmaq imkanını əldən verib. Əvəzində Fransa futbolçuları ikinci dəfə qitənin ən güclüsü olublar.

## 2004

2004-cü ildə Portuqaliyada təşkil olunmuş qitə birinciliyində Yunanıstan yığması bütün proqnozları alt-üst etmişdi. Turnirin açılış və bağlanış matçlarında eyni komandalar üz-üzə gəliblər. Amma hər iki halda yunanlar meydan sahiblərini məğlub etməyin yollarını tapıblar.

Otto Rehagelin başçılıq etdiyi komanda pley-offda Fransa və Çexiya kimi komandalar üzərində gözlənilməz qələbələr qazanıb. Lakin hamı finalda Portuqaliya yığmasının meydan amilindən istifadə edərək, çempion olacağını gözləsə də, nizam-intizamlı yunanlar başqa şey düşünüblər. Maraqlıdır ki, çempion komanda pley-off mərhələsində qapısından top buraxmayaraq, mükafata layiq olduğunu sübuta yetirib.

## 2008

2008-ci il Avropa çempionatı 2000-ci ildə olduğu kimi, yenidən iki ölkədə təşkil olundu. Qitə birinciliyində komandaların çempionluq uğrunda apardığı amansız mübarizəyə bu dəfə Avstriya və İsveçrə ev sahibliyi edib. Hələ çempionatın əvvəllərindən azarkeşlər İspaniya və Almaniya yığmalarını favorit hesab edirlər. Komandaların heyətləri də bunu deməyə əsas verirdi. Elə ehtimallar da özünü doğrultdu. Çempionatın finalında məhz bu iki komanda üz-üzə gəldi. Gərgin və maraqlı mübarizə şəraitində keçən oyunda İspaniya millisi Almaniya yığmasına qalib gələrək çempionluq sevincini yaşadı. Üçüncü yerləri isə Rusiya və Türkiyə komandaları tutdular.

## 2012

4 il sonra Avropa çempionatına Polşa və Ukrayna birgə ev sahibliyi etdi. 2008-in qalibi olan İspaniya millisi bu yarışda da əsas mükafatlara namizədlik iddiasını ortaya qoydu. Finalda İtaliya millisinə böyük hesabla (4:0) qalib gələn "Qırmızı furya" ardıcıl ikinci dəfə, ümumilikdə isə üçüncü dəfə qitə çempionatının kubokunu başı üzərinə qaldırdı. Almaniya və Portuqaliya millilləri isə bürünc medallara sahib çıxıb.

## 2016

AVRO-2016 4 ildən sonra Fransada təşkil olundu. "Xoruzlar ölkəsi"nin yığma komandası doğma azarkeşlər önündə çempionatın qalibi olmağa əsas iddialılardan olsa da, onların bu istəyi həyata keçmədi. Finala qədər doğma azarkeş amilindən istifadə edən Didye Deşamın yetirmələri Portuqaliya yığması ilə üz-üzə gəldi. Çempionluğa gedən yolda bütün rəqiblərinə qalib gələn Portuqaliya yığması həlledici görüşdə güclü rəqibdən üstün oldu. Həmin görüşün müqəddəratını cəmi bir qol həll etdi ki, bununla da Portuqaliya tarixində ilk dəfə Avropa çempionu oldu.

Olimpiya Oyunlarının tarixindən

# Olimpiya oyunlarının mənşəyi və dəyişməyən mövzusu



*Dilqəm Quliyev, pedaqogika üzrə elmlər doktoru, professor*

Qədim Yunanıstanda Olimpiya oyunlarının mənşəyi haqqında bir çox maraqlı əfsanə və rəvayətlər vardır. Bu rəvayətlərin bəziləri Olimpiya oyunlarının yaranmasına əfsanəvi qəhrəmanlar Pelops və Heraklın adı ilə bağlayırlar. Əfsanəyə görə oyunların əsasını Pisa çarı Enomayın qızı Hippodamiya ilə evlənmiş Pelops (əfsanəyə görə Tantal olimpiyada oğlu Pelopsu qurban kəsib ziyafət verir və allahları da ora dəvət edir. Allahlar yeməyə əl vurmurlar. Yalnız qızının ölümündən ağlını və huşunu itirmiş Demetra ətdən bir parça yeyir. Bu uşağın çiyin əti imiş. İnsanın qurban verilməsindən imtina edən allahlar Hermesdən uşağa can verib diriltməyi xahiş edirlər. Hermes doğranmış uşağın ət parçalarını bir yerə toplayıb, qazanda bişirir. Demetranın yediyi çiyin sümüyünün yerinə fil sümüyü qoyur. Pelops dirilir və onun çiynində ağ xal qalır. Bu həmin fil sümüyü idi) qoymuşdur. Çar Enomay qızının ərə getdiyi gün öləcəyini bilirmiş. Ona görə də çar elan etmişdir ki, qızını döyüş arabaları yarışında onu məğlubiyyətə uğradan (yarışda onu keçən) adama verəcəkdir. Əks təqdirdə Hippodamiya ilə evlənmək istəyən adam edam olunacaqdır. Bu yarışda iştirak edən Pelops Pisa çarının döyüş arabasını ötərək qələbə qazanır və qazanılmış qələbə münasibətilə Olimpdə idman yarışları keçirməyi qərara almışdır.

Başqa bir əfsanəyə görə Olimpiya oyunlarının əsasını qədim yunan mifologiyasının yenilməz qəhrəmanlarından biri - Herakl qoymuş və o, oyunlara ümumyunan xarakteri vermişdir.

Bəzi mənbələrdə isə Olimpiada oyunlarının yaranmasına Elida çarı İfitlə məşhur spartalı Likurq arasında bağlanmış müqəddəs ittifaqla əlaqələndirirlər. Həmin müqaviləyə görə Olimpiya müqəddəs yer hesab olunurdu və heç kəs oraya silahla gələ bilməzdi.

Qədim dövrlərin Olimpiya oyunları əvvəlcə qəbilələrin kult bayramları, baş allah Zevsə həsr olunmuş şənliklərlə bağlı olmuşdur.

Oyunlarda iştirak etmək arzusunda olan hər kəs bunu əvvəlcədən bildirməli və onun adı xüsusi siyahıya qeyd olunmalı idi. Bu zaman o, on ay ərzində xüsusi məktəblərdə öz hesabına yarışlara hazırlaşmalı idi. Görünür, qədim ellinlər Olimpiada iştirakçılarını öz çeviklikləri, güc və sürətləri ilə onlara sevinc bəxş edəcək yaxşı hazırlıqlı atletlər kimi görmək istəmişdir. Gələcək olimpiyaçılar indi də startlara əvvəlcədən hazırlaşırlar.

Qədim dövrlərdən Olimpiya oyunları təkcə idman yarışları deyil, həm də böyük sənət müsabiqəsi, yaxşı gəlir gətirən bazarlar demək idi. Yeri gəlmişkən, qədim dövr olimpiadalarının bu cəhəti oyunların indiki təşkilatçılarının ürəyincədir.

Bununla belə, qədim yunanların oyunları hər şeydən əvvəl hərbi qüvvəyə baxış olmuş və oyunlar vətəndaşların hərbi-fiziki hazırlıqlarının mühüm vasitəsi hesab edilmişdir. Bunu oyunların proqramında hərbi növlər üzrə yarışların olması təsdiq edir.

Olimpiya oyunlarının keçirildiyi günlər bütün ölkədə sülh, əmin-amanlıq hökm sürür. Bu zaman "müqəddəs sülh" üç ay davam edir və oyunlara gedən, yaxud onlardan qayıdan hər kəs toxunulmaz hesab olunur.

Qədim dövrlərin Olimpiya oyunları qalibləri arasında məşhur xadimlər də olmuşdur. Məsələn, makedoniyalı Filipp (makedoniyalı İsgəndərin atası) atçapma yarışlarında birinci yerə çıxmış, riyaziyyatçı Pifaqor İsmiya və Pifiya oyunlarının (bu oyunlar Delfdə və Korinf boğazında keçirilmişdir) qalibi olmuşdur.

Qadınların qədim Olimpiadalarda iştirakı qadağan edilmişdi. Üstəlik buraya tamaşaçı kimi gələn qadınları ölüm təhlükəsi gözləmişdir. Tribunalarda Ferenika adlı bir qadın ələ keçdikdən (müxtəlif dövrlərdə atasının, ərinin, qardaşının və oğlunun oyunların qalibi olduqlarını nəzərə alaraq onu bağışlamışlar) sonra qəbul edilən qərara görə hətta məşqçilər və idmançılar da yarışlara çılpaq gəlməli idilər.

Bununla belə ilk Olimpiya oyunları haqqında məlumat yoxdur. Olimpiya oyunları haqqında ilkin məlumatlar eramızdan əvvəl 776-cı ilə aiddir. Həmin ildə yarışların qalibləri qeydə alınmış, olimpiadanın nömrələnməsi müəyyən edilmişdir. Olimpiya bayramı "müqəddəs ayda" qeyd olunurdu. Bu ay yayın günəşli günlərindən 1417 gün keçəndən sonra başlanırdı. Olimpiya oyunlarında qullar və barbarlar iştirak etmirdilər.

Romalılar Yunanıstanda qələbə çalandan sonra oyunların əhəmiyyəti və onların iştirakçılarının sayı azalmışdır. Vaxt keçdikcə Olimpiadalar adi idman yarışlarına çevrilmiş, Roma imperiyasının təşkil etdiyi çoxlu idman tamaşalarının güclü rəqabəti ilə qarşılaşmışdır.

Roma imperatoru I Feodosiya ölkədə xristianlığı məcburi qəbul etdirəndən sonra olimpiya oyunlarını bütpərəstlik mərasimi hesab edib eramızın 394-cü ilində onu qadağan etmişdir.



### Qalib çox olsa da, zeytun çələngi yalnız bir idmançıya verilirdi

Olimpiya oyunlarında əvvəllər atletlər iştirak edirdilər. Onlar müəyyən dövləti təmsil edirdilər və onların qazandığı qələbə təmsil etdikləri dövlətin və ya şəhərin müvəffəqiyyəti hesab edilirdi.

Oyunlara rəhbərlik edən ellanodiklər (hakimlər) Olimpiya oyunlarına bir il qalmış Elida vətəndaşlarından seçilirdilər. Onlar oyunlarda iştirak etmək istəyənlər arasında ən ləyaqətlilərini seçir və bir ay müddətində bu idmançıların məşqlərinə rəhbərlik edirlər. Ellanodiklər Olimpiya oyunlarının qaydalarının əməl olunmasına ciddi nəzarət edirdilər. Qələbə uğrunda mübarizədə qeyri-qanuni fəndlər işlətmək, rəqiblərlə razılığa gəlmək və rəqibləri ələ almaq (rüşvət, pul, bəxşiş və s. ilə) qadağan olunurdu. Yarış zamanı rəqibə zədə yetirmək qadağan idi. Müxtəlif olimpiya yarışlarında bir neçə qalib müəyyən olunurdu, lakin zeytun çələngi bir adama qismət olurdu: çünki olimpiadanın yalnız bir qalibi olmalıydı. Bu qalibin necə müəyyən edilməsi haqqında bizə məlumat gəlib çatmamışdır. Hansı şəhərdən və ya hökumətdən qalib çıxırdısa, ona hər cür hörmət göstərilirdi: onun heykəli meydança və küçələrdə ucaldılır, təsvirini pullara həkk edirdilər, olimpiya oyunları qaliblərinin şərəfinə himnlər və mahnılar qoşurdular.

Olimpiya oyunlarında əvvəlcə yalnız atletlər yarışırdılar. Bu, yarış stadionunun uzunluğuna bərabər qaçış olub (192, 27 m) "stadiy" adlanırdı. Qaçışın bu növü - stadiodrom yarım əsrdən çox ellinlərin olimpiya bayramlarında yeganə yarışı sayılmışdır. 14-cü Olimpiya oyunlarında (bizim eradan əvvəl 724-cü ilə qədər) proqrama 2 stadiya qaçışı əlavə olunurdu. Bu "diaulos" adlanırdı. Atletlər stadionu o başa və əksinə qaçardılar. I Olimpiya oyunlarında (bizim eradan əvvəl 720-ci ilədək) dözümlülük qaçışı - dolixodrom qaçışı keçirilərdi. Onun məsafəsi 7-dən 2 stadiya arasında olardı. Qaçış yarışları bir neçə mərhələdə o vaxtadək davam edərdi ki, axırda 4 nəfər iti qaçan qalardı və onlar da birinci yer uğrunda mübarizə aparardılar.

Bizim eradan əvvəl 708-ci ildə proqrama güləşmə və beşnövçülük də əlavə olundu. Güləşçilərin mübarizəsində qələbə qazanmaq üçün rəqibi üç dəfə yerə çırpmaq lazım idi. Beşnövçülük (pentatlon) stadiodromdan, uzununa tullanmaqdan, nizə, dəmir lövhə atmaqdan və güləşmədən ibarət idi. İdmançılar uzununa tullanmağı əllərində qantellərlə icra edirdilər: belə hesab edirdilər ki, bu, idmançıya uçuşda daha böyük məsafə qət etməyə kömək edir. Nizəni və dəmir lövhəni çox da hündür olmayan yerdən atardılar. Dəmir lövhə atanlar daha uzağa atmaq, nizə atanlar isə daha dəqiq atmaq uğrunda yarışardılar. Pentatlonda qalib gəlmək üçün bütün ehtimala görə üç yarışda qalib gəlmək tələb olunurdu. Əgər atletlərdən heç biri buna nail olmazdısa, qalib beşnövçülüyün sonuncu növündə - güləşmədə müəyyən olunardı. 23-cü olimpiya oyunlarında (bizim eradan əvvəl 688-ci ilə qədər) ilk dəfə olaraq yumruq döyüşü keçirildi. İştirakçıların yumruqları qayışlarla örtülərdi; iştirakçılardan biri yerə yıxılanda və ya təslim olanda döyüş başa çatardı. Olimpiadanın 2-ci oyunlarında (bizim eradan əvvəl 680-ci ilə qədər) güləşmə və yumruq davası pankrationla birləşdi, bunlar güləşmə və yumruq davası fəndlərinin birləşməsindən ibarət idi. İki təkərli arabaya 4 at qoşardılar. Məsafə: 4 mərhələ üzrə 12 dövrə idi. 6-cı Olimpiadada (bizim eradan əvvəl 20-ci ilə qədər) ilk dəfə olaraq atletlərin tam silahlanmış halda qaçışı oldu. 93-cü olimpiadadan başlayaraq (bizim eradan əvvəl 408-ci ilə qədər) təkərlər üzərində yarış da keçirilir və təkərə cüt at qoşularmış. Təkərlər yarışında iştirak edənlər deyil, bu atlara və təkərlərə sahib olanlar qalib sayılarmışlar (ellin qadınları da bu hüquqa malik imişlər).



Atletlər Olimpiya oyunlarında yarışların növləri üzrə çıxış etməyə məcbur idilər: yalnız qaçışda, atmalarda, tullanmalarda, güləşmədə, yumruq döyüşündə gücü olan müvəffəqiyyət qazana bilərdi. 37-ci olimpiadadan (bizim eradan əvvəl 632-ci ilə qədər) başlayaraq yarışlarda 20 yaşından az yeniyetmələr də çıxış etməyə başadılar. Əvvəlcə onlar qaçışda və güləşmədə yarışırdılar. Sonrakı Olimpiadada isə beşnövçülükdə də mübarizə apardılar, daha 12 il sonra isə yumruq döyüşündə, bizim eradan əvvəl 200-cü ilə qədər isə (14-cü olimpiadada) pankration üzrə yarışmağa başladılar. Uzun illər boyu oyunlar bir gün ərzində keçirilirdi. 78-ci olimpiadadan (bizim eradan əvvəl 468-ci ilə qədər) isə atletlər bir neçə gün yarışmağa başladılar.

Olimpiada qalibləri arasında bu atletlər daha məşhurdular: Rodosdan olan Leonidas - O, 12 qələbə qazanmışdır (bizim eradan əvvəl 164-12-ci illərə qədər). O, stadiodrom, diaulos və silahlı qaçışda qalib olmuşdur. Ksanfandan olan Germogen 8 qələbə (bizim eradan əvvəl 81-89-cu illərədək) əldə etmişdir. Krotondan olan Astilos 7 qələbə qazanmışdır (bizim eradan əvvəl 488-478-ci illərə qədər). O da qaçışın həmin növləri üzrə qalib olmuşdur. Lakoniyadan olan Xionis 6 qələbə qazanmışdır (bizim eradan əvvəl 664-66-cı illərə qədər), özü də qaçışda və tullanmalarda. Sonuncu Spartalı Gipposfen güləşmədə qələbə əldə etmişdi (bizim eradan əvvəl 624-608-ci ilədək.

Şairlər olimpiya bayramlarında oyunlara həsr olunmuş şerlər və himnlər oxuyardılar, natiqlər öz çıxışlarında onları təriflərdilər. 84-cü oyunlardan (bizim eradan əvvəl 444-cü ilə qədər) başlayaraq Olimpiya oyunları yarışları proqramının bir hissəsini incəsənət müsabiqəsi tutdu. Oyunlarda Herodot, Sokrat, Demosfen, Lukian, Pifaqor kimi görkəmli yunan mədəniyyət xadimləri çıxış edirdilər.

Qədim Yunanıstanın ictimai-siyasi həyatında olimpiya oyunları mühüm rol oynayırdı. Bu oyunlar ayrı-ayrı dövlətlər arasında əlaqələri möhkəmləndirirdi. Lakin bununla yanaşı, bu oyunlar bir növ hərbi qüdrətin baxışı idi.

Yunan torpaqları Romanın ixtiyarına keçəndən sonra da bu oyunlar təşkil olunurdu. Atletlərin yarışları 1168 il ərzində müntəzəm keçirilmişdir.

Yeri gəlmişkən, idmanda atletə həmişəlik verilən yalnız bir qalib adı vardır. Bu, Olimpiya oyunları çempionu adıdır. Təkcə ona heç vaxt "keçmiş" sözü əlavə olunmur. İdmanda "Olimpiya çempionu" adından fəxri ad yoxdur. Yəqin ona görə ki, bu adı qazanmaq idmanda hər hansı başqa ad qazanmaqdan dəfələrlə çətindir. Bir də ki, atletlər bu ad uğrunda dörd ildə bir dəfə mübarizə aparırlar və heç də hamı dalbadal bir neçə Olimpiadada çıxış edə bilmir.



# Dünya idmanı



## Mayk Tayson Floyd Meyvezerə irad bildirdi

Boks üzrə ağır çəki dərəcəsində keçmiş mütləq dünya çempionu Mayk Tayson beş çəki dərəcəsində keçmiş çempion Floyd Meyvezerə irad bildirib. M.Taysonun fikrincə o, Floyddan qat-qat ağır çəkidə olan blogger Loqan Pol ilə döyüş keçirməkdə səhv qərar verib. Mayk Tayson hesab edir ki, F.Meyvezer daha yüngül çəkidə döyüşməlidir.

"Düşünürəm ki, Floyd döyüşməyə davam etməlidir. Amma lənətə gəlmiş birinci ağır çəkidə döyüşməli olduğunu hesab etmirəm. O, eyni çəki dərəcəsində olan boksçularla döyüşməlidir. Floyd Loqana çəki atmasını məcbur etməli idi. Düzünü deyim ki, onun bunu etməməsi məni çox təəccübləndirdi", - deyə M.Tayson bildirib.

Qeyd edək ki, Floyd Meyvezer ilə Loqan Pol arasında keçirilən sərgi döyüşü 3 dəqiqə olmaqla, 8 raund təşkil edib. Nəticədə qalib müəyyənləşməyib.

olimpnews.az - sizin saytınız



## Rəqibinə kömək etmək istədi hakimdən cəza aldı

2022-ci ildə təşkil olunacaq futbol üzrə dünya çempionatının seçmə mərhələsində Ekvador millisi Peru yığmasına məğlub olub (1:2). Lakin oyun maraqlı hadisə ilə diqqət çəkib. Belə ki, Ekvador millisinin qapıçısı Aleksandr Dominqes oyunun 79-cu dəqiqəsində gözlənilmədən sarı vərəqə alıb. Buna səbəb isə onun rəqib komandanın zədələndiyi futbolçunu xərəyə yerləşdirmək istəyən tibbi personala kömək etmək arzusu olub. Hakim qapıçıya xəbərdarlıq etsə də, sonda futbolçuya sarı vərəqə göstərmək məcburiyyətində qalıb. Hakim A.Dominqesin bu addımını qeyri-idman hərəkəti olaraq qiymətləndirib.




## Hakim futbol meydançasına enən paraşütçüyə sarı vərəqə göstərdi

Polşadakı futbol matçında kuryoz hadisə qeydə alınıb. "Olimpia Elblag" və "Pisa Primavera Barczewo" klubları arasında keçirilən qarşılaşma zamanı paraşütçü idman meydançasına enib.

Təəccübdən nə edəcəyini bilməyən hakim paraşütçüyə sarı vərəqə göstərib. Onun bu hərəkəti həm furbolçular, həm də azsaylı tamaşaçıların gülüşünə səbəb olub.

Sonradan paraşütçünün oyun meydançasına təcili eniş etmək məcburiyyətində qaldığı məlum olub.

## Triatlonçu suda boğuldu

Rusiyada keçirilən triatlon üzrə yarış faciə ilə yadda qalıb. Hadisə Moskvaətrafındakı Bronnitsa şəhərində təşkil olunan yarış zamanı baş verib. TTTAN-2021 turnirinin gedişində idmançı suda batıb. Yarışın üzgüçülük növü zamanı iştirakçılardan biri özünü pis hiss edib. Xilasedicilər onu dərhal sudan çıxarsalar da, idmançıya göstərilən tibbi yardım yetərli olmayıb. Triatlonçu təcili tibbi yardım maşınında vəfat edib.

Batan şəxsin adı açıqlanmır. 42 yaşlı idmançının yarışa sağlamlıqla bağlı buraxılışı olub. O, Olimpiya məsafəsində (1,5 km üzgüçülük, 40 km velosiped, 10 km qaçış) qüvvəsini sınayıb.





## Nigeriyalı döyüşçü UFC çempionu titulunu qoruyub

Nigeriyalı qarışıq döyüş üzrə idmançı (MMA) İsrael Adesanya İtaliya Marvin Vettorini məğlub edib. Bununla da İ.Adesanya Mütləq Döyüş Çempionatının (UFC) orta çəkisində (83.9 kq-a qədər) çempionu adını qoruyub. UFC turniri ABŞ-ın Qlendeyl şəhərində (Arizona ştatı) keçirilib.

İ.Adesanya 2019-cu ilin oktyabrından bəri sahib olduğu çempionluq kəmərini üçüncü dəfə qoruyub.

## *Dünya çempionu karyerasını başa vurdu*

WBA (Ümumdünya Boks Assosiasiyası) və WBC (Ümumdünya Boks Şurası) versiyaları üzrə superağır çəkidə keçmiş müvəqqəti dünya çempionu Aleksandr Povetkin idmançı karyerasını başa vurub.

Bu barədə 41 yaşlı peşəkar boksçunun özü açıqlama verib. "İllər aldığını alır. Karyeramı bitirməyi qərara aldım", - deyə Povetkin bildirib.

Daha əvvəl o, koronavirus keçirməsi səbəbindən damar sistemində ciddi problemlərin aşkarlandığını söyləyib.

Qeyd edək ki, Aleksandr Povetkin 2004-cü il Afina Yay Olimpiya Oyunlarında 91 kq-dan yuxarı çəkidə qızıl medal qazanıb. O, həm də dünya və ikiqat Avropa çempionudur. Povetkin WBC versiyası üzrə keçmiş müvəqqəti dünya çempionu (2020 - 2021), WBA versiyası üzrə dünya çempionu (2011 - 2013), WBC Silver (2014-2016), WBO International (2017-2018) və WBA Inter-Continental (2017-2018) kəmərlərinin sahibidir.

## *Maradonanın əfsanəvi qolu təkrarlandı*

Finlandiyanın futbol üzrə dördüncü liqasında mübarizə aparan "Kometa" və "Varkaus" komandaları arasındakı qarşılaşmada yaddaqalan qol qeydə alınıb. "Varkaus"un hücumçusu Tommi Lankinen künc zərbəsindən ötürmə zamanı topu qapıya əllə göndərib. Lakin heç nə olmamış kimi qolu qeyd edən futbolçu hakimlərin də gözündən yayına bilib və nəticədə qol qeydə alınıb. Futbolçu bununla da bir vaxtlar əfsanəvi Dieqo Maradonanın vurduğu qolu təkrarlayıb.

Xatırladaq ki, Maradona 1986-cı ildə dünya çempionatında İngiltərəyə qarşı əllə fərqlənmiş və bu qol dünya tarixinə "Tanrının əli" kimi düşmüşdü.

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir. Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT! Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19